Şamaxı

# COP29-un qonaqları bölgənin tarixi ilə tanış olublar

## "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfə olaraq rayonda ağac əkdilər



**COP29 ilə bağlı ölkəmizdə olan müxtəlif ölkələrin nümayəndə heyətləri paytaxt Bakı ilə yanaşı, bölgələrə səfər edərək regionun tarixi, bu günü və gələcək inkişafı ilə maraqlanıblar. Nümayəndə heyətinin bir qrupu Şamaxı rayonunda xalqımızın mədəni irsi, tarixi abidələri və müasir inkişafı ilə ətraflı tanış olublar.**



Sakit okeanda yerləşən Niue ada dövlətinin Baş naziri Dalton Taqelaqi və digər rəsmilər səfəri zamanı Şamaxı Cümə Məscidi, N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası və rayonun Meysəri kəndindəki müasir kənd təsərrüfatı və turizm müəssisələrinə baş çəkiblər. Rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov qonaqlara Şamaxının tarixi, mədəni həyatı, sosial-iqtisadi inkişafı və turizm potensialı ilə bağlı həyata keçirilən layihələr haqqında məlumat verib.

Qeyd edək ki, bu günədək COP29 çərçivəsində Şamaxıya Almaniya, Banqladeş, Birləşmiş Ərəb Əmirlikləri, Birləşmiş Krallıq, Bolqarıstan, Braziliya, Cənubi Afrika, Çin, Fransa, Hindistan, İndoneziya, İordaniya, İtaliya, Kanada, Qazaxıstan, Qırğızıstan, Nigeriya, Pakistan, Polşa, Rusiya, Tacikistan, Türkiyə, Vyetnam, Yaponiya və digər ölkələrdən çox sayda xarici qonaqlar gəlib.

COP29 çərçivəsində ölkəmizdə olan Bolqarıstan Respublikasının Prezidentinin xanımı Desislava Radeva Şamaxıda Azərbaycanın ən qədim məscidi olan Cümə Məscidində olub və məscidin axundu Mərəhməd Mustafayev qonağa Azərbaycandakı multikultural mühit və dini dəyərlər barədə geniş məlumat verib.





Rayonun müasir kənd təsərrüfatı və turizm müəssisələri ilə tanış olan xanım Radeva Şamaxıya səfəri zamanı "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfə olaraq ağac əkmişdir.

Medianın İnkişafı Agentliyi və COP29 Əməliyyat Şirkətinin birgə təşkilatçılığı ilə Şamaxı şəhərinə mediatur təşkil olunub.

Qonaqlar mediatura XV əsrə aid unikal ikimərtəbəli "Diri Baba" türbəsindən başlayıblar.

Qeyd olunub ki, Şirvanşah hökmdarı I İbrahimin əmri ilə tikilən "Diri Baba" türbəsi dövlət mühafizəsinə götürülmüş ölkə əhəmiyyətli memarlıq abidəsidir. Tikilən türbənin bir hissəsi qaya içərisində yerləşdiyindən Qafqazın ən nadir abidələrindən hesab olunur. Tikilinin yaxınlığında yerləşən bir neçə mağara, kahalar, orta əsrlərə aid qəbiristanlıq və abidə bütövlükdə tarixi landşaft formalaşdırır.

Daha sonra jurnalistlər çoxəsrlik dəmirçilik ənənələri ilə zəngin olan Dəmirçilər kəndini ziyarət edərək kəndin tarixi ilə bağlı ətraflı məlumat alıblar. Vurğulanıb ki, Dəmirçi Şamaxının ən qədim kəndlərindən biridir və onun tarixi XV əsrə gedib çıxır. Qədimdə adı Güneyçay olan kənddə dəmirçilik sənəti geniş yayıldığından sonralar buraya Dəmirçi adı verilib.

Xarici media nümayəndələri sonda ölkəmizin üzümçülük mədəniyyəti ilə tanış olmaq üçün Meysəri şərabçılıq kompleksinə səfər ediblər. Diqqətə çatdırılıb ki, Şamaxının Meysəri kəndinin təbii iqlim şəraiti, illik yağıntıların miqdarı, temperatur göstəriciləri, ərazinin müxtəlif yerlərindən götürülən torpaq nümunələrinin analizlərinin nəticələri burada yüksəkkeyfiyyətli və məhsuldar üzüm sortlarının yetişdirilməsi üçün imkanların olduğunu göstərir.

**M.NƏRİMANOĞLU,**
**"Respublika".**

# BMU Birləşmiş Ərəb Əmirlikləri Universiteti ilə birgə elmi tədqiqatlara başlayır

**Birləşmiş Ərəb Əmirlikləri Universitetinin (BƏƏU) nümayəndə heyəti Bakı Mühəndislik Universitetində (BMU) olub.**



dördüncü yerə sahib olduğunu diqqətə çatdırıb.

Yaqub Piriyev BMU və BƏƏU-nun BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) 3 istiqaməti - "Təmiz su və sanitariya", "Sərfəli və təmiz enerji", "İqlim dəyişikliyinə qarşı mübarizə" üzrə birgə tədqiqatlar aparacağını xüsusilə qeyd edib. Vurğulayıb ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla, qlobal ekoloji böhranlara qarşı mübarizəyə ən aktiv qoşulan döv-



və bu mötəbər sessiyanın yüksək səviyyədə təş-